# Makronun "vədləri" Ermənistanın böhranını dərinləşdirir

## Fransa revanşist təfəkkürdən qurtulmamış İrəvanı öz məqsədləri üçün alətə çevirir

**"Fevralın 21-də Fransa Prezidenti Emmanuel Makron və Ermənistanın baş naziri Nikol Paşinyanın birgə mətbuat konfransında səslənən fikirlər bir daha sübut edir ki, Cənubi Qafqazda dayanıqlı sülhün, xalqların birgə yaşayış və qarşılıqlı etimad mühitinin formalaşmasının qarşısında duran ən əsas əngəl Fransadır. Baxmayaraq ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi məqsədlərinin realizə edilməsində, beynəlxalq hüquq normalarında əksini tapan prinsiplərin təmin olunmasında qlobal öhdəliyə malikdir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Fransa faktiki olaraq ümumbəşəri dəyərləri özünün imperialist, təcavüzkar mahiyyətdə ehtiva olunan riyakar maraqlarına qurban verərək irticaçı subyekt kimi çıxış edir. Bu ölkə onsuz da revanşist təfəkkürdən qurtulmamış İrəvanı öz məqsədləri üçün yenidən alətə çevirir. Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində qazandığı qələbə bu gün Cənubi Qafqazda dayanıqlı sülh üçün tarixin heç bir dövründə olmadığı qədər imkan yaradıb. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında işğal və təcavüzə hərbi-siyasi yolla son qoyması artıq regional nizamı dəyişib, eyni zamanda Ermənistanın özü üçün də region dövlətləri ilə münasibətlərini normallaşdırmaq, regional layihələrin iştirakçısı olaraq dalan dövlət statusundan qurtulmaq üçün müstəsna imkan yaradıb. Belə bir məqamda Makronun erməni təəssübkeşi kimi davranaraq İrəvanı yenidən silahlandırmaq vədləri, fevralın 12-dəki sərhəd təxribatında haylara açıq dəstək verməsi anlaşılmazdır. Əgər Fransa Prezidenti həqiqətən də Ermənistanın və erməni xalqının maraqlarını düşünsəydi, mövcud reallıqlara onlar üçün yeni imkan kimi yanaşar, özünün və ölkəsinin təsir imkanlarından istifadə edərək mümkün qədər sülh və sabitliyin daha qısa müddətə reallaşmasına çalışardı.

Deputat qeyd edib ki, Fransa Cənubi Qafqazda sülh və dayanıqlı sabitliyi özünün neoimperialist maraqlarının realizə olunmasına təhdid kimi baxır: "Nəticə etibarilə də Fransa rəhbəri artıq beynəlxalq ictimaiyyət qarşısında və media nümayəndələri üçün açıqlamalarında Ermənistanın revanşist niyyətlərinə açıq dəstək verməkdən və təcavüzkar niyyətlərə təşviq etməkdən çəkinmir. Bu isə ümumbəşəri dəyərləri hədəfə alan və qlobal təhlükəsizlik üçün təhdid əxz edən qəbuledilməz mövqedir və istər Fransa qanunvericiliyi ilə, istərsə də beynəlxalq hüquqla bəşəriyyət əleyhinə cinayətdir. Daha dəqiq desək, Afrika, Asiya və Okeaniyada müstəmləkə cinayətlərinin ardınca Paris artıq Cənubi Qafqazda sülh əleyhinə cinayətlərin təhrikçisi və təşkilatçısı kimi çıxış etməkdədir".

B.Məhərrəmov bildirib ki, üç il ərzində iki dəfə kapitulyasiya imzalamağa məcbur olan Ermənistan reallıqlardan dərs çıxarmayaraq Fransanın təhrikedici ritorikasının parçasına çevrilməklə özünün dövlətçiliyini və milli təhlükəsizliyini yenidən təcavüzkar ritorikaya və miflərə qurban verir. Azərbaycan Fransa və Ermənistanın təcavüzkar mahiyyətdə ehtiva olunan və hər iki ölkənin rəhbərləri tərəfindən dilə gətirilən ritorikasını diqqətlə izləyir. Heç kim unutmamalıdır ki, yeni dövr üzrə Azərbaycanın xarici siyasət kursunda Ermənistanla münasibətlər bizim üçün prioritet deyil. Prezidentin andiçmə mərasimində dediyi kimi, Azərbaycan artıq dünyanı narahat edən qlobal məsələlərlə məşğuldur. Yəni xarici siyasət kursumuzda Ermənistan kimi hansısa üçüncü dövlətlə münasibətləri nizamlamaq, yaxud Fransa kimi imperialist, əli qana batmış dövlətlə əlaqələri dərinləşdirmək kimi xüsusi hədəflərimiz yoxdur.

"Konkret İrəvana gəlincə, cənab Prezidentin təbiri ilə desək, indi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, sülh müqaviləsi imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Biz ümumbəşəri dəyərləri rəhbər tutaraq bütün dünya xalqları ilə beynəlxalq hüquq normaları çərçivəsində mehriban əlaqələr qurmaq niyyətindəyik. Lakin bu, bərabərhüquqlu tərəfdaşlıq və bəynəlxalq hüquqa əsaslanan əməkdaşlıq formasında ola bilər. Makronun ritorikasından görünür ki, o, Cənubi Qafqazda bərabərhüquqlu tərəfdaşlıq yox, diktə etmək və imperialist niyyətlərini yeritmək üçün marionet subyekt axtarışındadır. Bu mənada Fransanın niyyətləri məhz Ermənistanın hazırkı durumu ilə üst-üstə düşür", - deyə B.Məhərrəmov əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan hərbi-siyasi reallıq yaratmış, ərazi bütövlüyünü, suverenliyini öz gücü hesabına bərqərar etmiş qüdrətli və diktə edən beynəlxalq subyekt kimi, Fransanın regionda qeyri-adekvat niyyətləri üçün alət ola bilməz. Əksinə, biz özümüz reallığı diktə edirik və əgər Paris bölgədə maraqlarını müdafiə etmək niyyətindədirsə, Azərbaycanın yaratdığı status-kvo ilə hesablaşmağa məcburdur. Bu mənada Fransanın Ermənistanı yenidən silahlandırması, Makronun Paşinyanla birgə mətbuat konfransında yeni texnologiyalar vəd etməsi özlüyündə bölgədə heç nəyi dəyişə bilməz, əksinə, Ermənistanı əsassız olaraq inandıraraq yenidən münaqişəyə təşviq etməklə bu ölkədə dövlət böhranının, Ermənistanın "failed state" statusunun daha da dərinləşməsinə səbəb olacaq. Düşəcəyi daha çıxılmaz vəziyyətə görə isə Prezidentin andiçmə mərasimində bəyan etdiyi kimi, o inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər, bütün məsuliyyəti daşıyırlar və bölüşürlər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.8.